**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№351/3** **07 dekabr 2022-ci il**

**Auditorlar Palatasında 2022-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü "Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Aparatı (Q.Bayramov) tərəfindən Auditorlar Palatasında 2022-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə təqdim edilmiş hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında 2022-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə hesabat bəyənilsin (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin 2021-ci il 30 dekabr tarixində təsdiq etdiyi qrafikə uyğun olaraq sorğuların vaxtında və yüksək keyfiyyətlə keçirilməsi, onların nəticələrinin təhlili və tövsiyələrin hazırlanmasına məsul olan şəxslərin (Q.Bayramov, V.Cavadov, Q.Əhmədov, Z.Almazov) işləri müsbət qiymətləndirilsin və onlara təşəkkür elan edilsin.
3. Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi V.Cavadova, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimova, Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova, Haqsız rəqabətə qarşı mübarizə şöbəsinin müdiri R.Cəfərliyə tapşırılsın ki, Palata sədrinin 2022-ci il 20 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmiş Auditorlar Palatasının üzvləri arasında peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planının 8-ci "Auditorlar Palatasında sahibkarlarla görüşün təşkil edilməsi (müvafiq qurumlarla birgə)" bəndinin icrasını qısa müddət ərzində təmin etsinlər.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazova, Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, Palata sədrinin 2022-ci il 11 oktyabr tarixli 1/30 nömrəli sərəncamı ilə təsdiq edilmiş Auditorlar Palatasının üzvləri arasında auditdə innovasiyaların tətbiqi və auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planının 5-ci "Auditorlar Palatası tərəfindən məlumatların elektron kargüzarlıq vasitəsilə göndərilməsi" və 10-cu "Auditorun şəxsi kabineti sistemində şablon müqavilə və rəy formalarının nümunələrinin yerləşdirilməsi" bəndlərinin icrasını qısa müddət ərzində təmin etsinlər.
5. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, gələcəkdə keçiriləcək sorğularda fəal iştirak etsinlər.
6. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**